# Şagirdlərə yaralanmalar zamanı ilk tibbi yardım bacarıqların aşılanması yolları

**Rasimə Əlihüseyn qızı Atakişiyeva**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi*
**E-mail:** rasima.atakishiyeva@gmail.com

**Rəyçilər:** t.ü.f.d. X.İ. Səfərova,
t.ü.f.d. R.N. Soltanov

**Açar sözlər:** qapalı zədələnmələr, ilk tibbi yardım, yaralanmalar, açıq zədələnmələ
**Ключевые слова:** закрытые травмы, первая помощь, травмы, открытые травмы
**Key words:** closed injuries, first aid, injuries, open injuries

Gənclərin həyata hazırlanmasında, müasir tələblərə cavab verən şəxsiyyətin formalaşmasında sağlamlıq əsas şərtlərdəndir. Həyata tam hazır şəxsiyyətin əsas əlaməti sağlamlıqdır. Xalqımızın maarifpərvər oğlu, görkəmli təbiətşünas alimi Həsən bəy Zərdabi insanın həyatda xoşbəxt və şən yaşaması üçün var-dövlətə deyil, möhkəm bədən sağlamlığına malik olmasını zəruri şərt hesab etmişdir. “Dünyada bədən sağlamlığından artıq dövlət yoxdur” demişdir.

Həyata tam hazır, sağlam gəncliyin yetişdirilməsi fənlərin tədrisi prosesində həyata keçirilməlidir. Tədrisi elə qurmaq lazımdır ki, hər bir məktəbli tibbi-gigiyenik biliklərə yiyələnərək sağlamlığı qayğısına qalmağı bacarsın və firavan həyat sürsün. Problemin məktəblərdə yüksək səviyyədə həllində müəllimlərin tibbi təhsilə malik olmasının, tədris işinin müasir tələblərini, onun nəzəriyyə, metodika və praktikasını yaxşı bilməsinin əhəmiyyəti böyükdür. Xüsusən də yaralanmalar zamanı ilkin tibbi yardımların göstərilməsi bacarığını aşılamaq olduqca zəruridir.

Mexaniki və digər səbəblərdən dəri və selikli qişaların, dərində yerləşən toxuma və orqanların tamlığının pozulmasına yara – yaralanma deyilir. Dəri və selikli qişanın üst təbəqəsinin zədələnməsi isə sıyrıq (sıyrıntı) adlanır. Ağrı, qanaxma və yaranın ağzının nə dərəcədə açıq olması yara üçün əsas əlamətlərdir.

Yaralar nişanələrinə görə təsnif olunur. Zədələnmənin mexanizmi və onu törədən alətin xüsusiyyətinə görə kəsilmiş, deşilmiş, çapılmış, cırılmış, əzilib-didilmiş, parçalanmış, dişlənmiş, zəhərlənmiş və odlu silah yaralanmalarına bölünür. Ağır yaralanmalarda sümüklər, iri damarlar, iri sinirlər, mərkəzi sinir sistemi və digər orqan və sistemlər zədələnə bilər. Zədələr səthi, dərin və bədən boşluqlarına nüfuz edən olur. Zədələnmələr dəri və selikli qişaların tamlığının pozulmasından asılı olaraq qapalı və açıq olur.

**Açıq zədələnmələr.** Açıq zədələrdə dəri və selikli qişanın tamlığı pozulur, ağrı və xarici qanaxma müşahidə edilir. Açıq yaralara cırılmış, çapılmış, parçalanmış, didilmiş, sıyrılmış, deşilmiş və s. aid edilir.

**Qapalı zədələnmələr.** Qapalı zədə küt alətlərin təsirindən dəri altı toxumaların və damarların tamlığının pozulması nəticəsində yaranır. Açıq zədədən fərqli olaraq burada dəri və selikli qişanın tamlığı pozulmur, xarici qanaxma müşahidə olunmur. Qapalı zədələrə əzilmə, gərilmələr, qırılma və partlamalar, fassiyanın dərialtı partlaması, əzələnin dərialtı qırılması, uzun müddətli sıxılma sindromu (toxumaların uzun müddət müəyyən təzyiq altında sıxılması) və s. aid edilir. Bütün zədələrdə ağrının şiddəti zədələnmə dərəcəsindən asılı olub, əsasən sinir uc-

larının zədələnməsindən baş verir. Qanın və limfanın dəri altına yığılması nəticəsində ödem yaranır. Əzələ və vətərlər zədələndikdə hərəkət pozğunluqları yaranır (zədələnmiş orqanın funksiyası pozulur), sinirin zədələnməsi nəticəsində isə həmin orqanda hissiyyat pozulur.

**Yaraların infeksiyalaşması** - Yaraların əsas təhlükəsi qanaxma və yaranın infeksiyalaşmasıdır. Bütün təsadüfi yaralar ilkin infeksiyalaşmış olur. İstənilən yarada mikrob mövcuddur. İnfeksiyalaşmış yara–toxumalara mikrobların sirayət etməsi deməkdir. Yara vaxtında təmizlənməlidir. Gövdə və ətraflardakı yaralar 4–6, üzdəki yaralar 24 saatdan gec olmayaraq yuyulub, cərrahi işləmə aparılmazsa infeksiyalaşmış sayılır və ilkin olaraq tikilməməlidir.

Yaraların aşağıdakı növləri var:

**Cırılma (kəsilmə)** - yaraları iti əşyalar – ülgüc, bıçaq, şüşə, dəmir qırıqları və s. törədir. Kəsilmiş yerin kənarı dişli ya da hamar olur. Toxumaların zədələnməsi zamanı müxtəlif həcmdə qanaxma olur. Cırılmış yara – səthi (dərinin kiçik ölçülü çatı), dərin (dərinin və dərin toxumaların deşilmiş zədəsi) və kənarları hamar olmayan, daha dərinə (vətər və damarlara) nüfuz edən ola bilər. Dərin cırılmalar piy, əzələ, vətər qatlarını ayıraraq, sinir və qan damarlarını zədələyə bilər.

**Əzilmiş yaralar** – zədələnmiş toxumaların sıxılıb əzilməsi və parçalanması ilə fərqlənir. Əzilmiş yaralar – küt əşyalarla (daş, çəkic) zərbə, hündürdən yıxılma, hərəkət edən yol nəqliyyat vasitəsinin toxunması nəticəsində baş verir. Əzilmə zamanı bədən səthindəki toxumalar və daxili orqanlar zədələnə bilər. Bədənin səthində yumşaq toxumalar əzilərkən ağrı, şişmə və qançır əmələ gəlir. Bunlar səthi əzilmələrin əsas əlamətləridir. Döş qəfəsinin və qarın nahiyəsinin güclü əzilməsi zamanı daxili orqanlar (ağciyər, qaraciyər, dalaq, böyrəklər) zədələnə bilər. Belə orqanlar zədələnərkən ağrı və çox vaxt qanaxma baş verir. Baş güclü zərbəyə məruz qaldıqda beyinin zədələnməsi (əzilməsi, sarsıntısı və sıxılması) mümkündür.

**Didilmiş, parçalanmış yaralar** - Həddindən artıq mexaniki qüvvənin təsiri nəticəsində dərinin bir hissəsinin və bəzi hallarda digər yumşaq toxumaların, qismən və ya tamamilə qoparaq atılması baş verir. Dərinlikdəki yumşaq toxuma qatlarının zədələndiyindən qanaxma çox olur. Qismən qoparılmış dəri parçası asılı vəziyyətdə ola bilər. Yaranın infeksiyalaşma imkanı çoxdur və həyat üçün təhlükə törədə bilər. Bəzi hallarda, bədənin müəyyən hissələri, məsələn, əl və ayaq barmaqları qopa bilər. Belə zədələnmələr travmatik amputasiya adlanır.

**Sıyrıq, sürtünmə (sıyrılma)** – Sürtünmə (sıyrılma) açıq yaraların ən geniş yayılmış növüdür. Bu, dərinin səthi qatlarının sürtünərək və ya sıyrılaraq açılması və kapilyarların zədələnməsi ilə xarakterizə olunan dəri üzərində qırmızı cızılmalardır. Belə dəri zədələnməsi əksərən uşaq yıxıldıqda əllərin, dizlərin sıyrılması zamanı baş verir. Qanaxma tez dayanır. Yara ağrılı, dərinin üzəri çirkli və infeksiyalaşmış olur. Belə yaranı sabun və su ilə yuyub, yara üzərinə steril salfet qoyub, bir neçə dəqiqə birbaşa sıxmaqla qanaxmanın qarşısını almaq olar.

**Deşilmə (yarılma)** – Deşilmiş yaralar bədənə iti uclu deşici əşyaların – iynə, mismar, şüşə parçası, bıçaq, güllə, qəlpə və s. deşib keçməsi nəticəsində baş verir. Belə yaraların dərin kanalları olur, daxilə nüfuz edir, daxili orqanların və ya iri damarların zədələnmələri ilə müşahidə oluna bilər. Dəri adətən daxil olmuş cisim ətrafında qapandığından, xarici qanaxma çox vaxt güclü olmur. Əsas qan damarları və daxili orqanlar zədələndikdə güclü daxili qanaxma baş verə bilər. Kəsilmiş-deşilmiş yara kəsilmə və deşilmə əlamətləri olan zədələnmədir. Yaranın infeksiyalaşma riski çox yüksəkdir.

**Odlu silahla yaralanma** – Güllə və qəlpə yaraları – yaraların xüsusi növüdür. Odlu silah yaraları müxtəlif növ odlu silahla (tüfəng, tapança, avtomat, mərmi, qəlpə və s.) törənən yaralardır. Güllə və qəlpə yaraları böyük zədələnmə zonası, daxili orqanların, sinir və damarların travmasına malik olması ilə fərqlənir. Güllənin dəydiyi yerdə yalnız bir girəcək dəliyinin ol-

ması kor güllə yarası üçün xarakterikdir. Dəlib keçən güllə yarasının giriş və çıxış dəliyi olur. Güllənin giriş dəliyi kiçik, çıxış dəliyi isə ondan təxminən 2–3 dəfə böyük, parçalanmış və dağılmış şəkildə olur. Qanaxmanın həcmi zədələnmiş toxumalardan asılı olur.

**Məqalənin aktuallığı.** İlk tibbi yardım heç də hər kəsin bacarmadığı və kifayət qədər operativlik, psixoloji hazırlıq, soyuqqanlıq tələb edən işdir. Məqalə də belə bir vacib mövzuya həsr edildiyindən onu aktual hesab etmək olar.

**Məqalənin elmi yeniliyi.** Məqalədə açıq və qapalı zədələnmələrdən söhbət açılır, yaraların təsnifatı verilir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə ali, orta ixtisas və orta ümumtəhsil məktəblərinin müəllim və tələbələri ilə yanaşı, eyni zamanda geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

## Ədəbiyyat

1. S.C. Əliyev. Tibbi biliklərin əsasları: Dərslik. Bakı, 2004.
2. Ş.Q. Vəliyev. İnsan anatomiyası və fiziologiyası: Dərslik. Bakı, 2001.
3. H.O. Ocaqov, Ş.D. Danyalov. Həyat fəaliyyətinin təhlükəsizliyinin nəzəri əsasları: Dərs vəsaiti. Bakı, 2008.
4. S.C. Əliyev, H.M. Hacıyeva, N.C. Mikayilzadə. Tibbi biliklərin əsaslari. Bakı, 2004.

**Р.А. Аталишиева**

## Усвоение навыки оказания первой помощи учащимся при травмах

## Резюме

Первая помощь – это первая помощь, оказываемая пострадавшему в результате несчастного случая. При этом главная цель – сохранить жизнь раненому, контролировать его состояние до приезда скорой помощи. Однако первая помощь оказывается не всем и требует достаточной срочности, психологической подготовки и хладнокровия. Малейшая неосторожность, которую вы допустите в этом случае, приведет либо к смерти человека, либо к пожизненной инвалидности.

**R.A. Atalishieva**

## Acquisition of first aid skills for students with injuries

## Summary

First aid is the first aid provided to a person injured in an accident. In this case, the main goal is to save the life of the wounded, to control his condition until the ambulance arrives. However, first aid is not for everyone and requires sufficient urgency, psychological preparation and composure. The slightest carelessness you allow in this case will either lead to the death of the person or a lifelong disability.

**Redaksiyaya daxil olub:** 10.05.2022